AzJESS
Azerbaijanian Journal of Economics and Social Studies

*Azərbaycanın İqtisadi və Sosial Araşdırmalar Jurnalı*
*www.azjess.com*
Sayı/Number 5, 2015

# KOOPERASİYA SİSTEMİNDƏ İQTİSADİ MEXANİZMİN FORMALAŞDIRILMA VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

**Ə.T.Zeynallı, i.f.d.,**
AzKTİETİ-nin Aqrar sahədə inteqrasiya və
kooperasiyanın inkişafı şöbəsinin müdiri

***Xülasə***

Ölkədə iqtisadi fəaliyyət sahələrinin, o cümlədən, ASK sahələrinin iqtisadi-statistik qiymətləndirilməsi qənaətbəxş sayılmır. Məhsul və xidmətlərin natural uçotu, istehsalçı və istehlakçı qiymətlərin statistik öyrənilməsindəki çatış-mazlıqlar istehsal edilən məhsullar və xidmətlərin dəyəri, onların istehsal xərcləri, yeni yaradılmış (əlavə) dəyərin hesablanmasına, habelə yeni yaradılmış (əlavə) də-yərin bölgüsünü aparmağa, mənfəətin səviyyəsini hesablamağa, istehsalın ixtisas-laşdırılması və səmərəlilik məsələlərini öyrənməyə imkan vermir. Məqalədə gös-tərilən məsələlərin həllinə dair yanaşmalar yer almışdır və MHS-nin 2008-ci il metodologiyasına uyğunlaşdırmağa səy göstərilmişdir.

***Açar sözlər***: iqtisadi mexanizm, istehsal mexanizmi, mübadilə mexanizmi, is-tehlak mexanizmi, qiymət mexanizmi, xərclər mexanizmi, maliyyə-kredit mexa-nizmi, vergi mexanizmi, istehsal kooperativlərinin iqtisadi mexanizmi.

***Məqalənin elmi yeniliyi*** iqtisadi mexanizmə dair yeni nəzəri yanaşma və ba-xışlar formalaşdırmaq, onu xarakterizə edən göstəricilər sisteminin müəyyən edil-məsi, hesablama metodologiyasının müəyyən edilməsi ilə, ***praktiki əhəmiyyəti*** isə kooperasiya sisteminin iqtisadi mexanizminin qiymətləndirilməsi, gəlirlərin dəyər zənciri üsulunda hesablanması, bölgüsü və mənfəətin düzgün hesablanmasına yararlı vasitə olması ilə səciyyələndirilir.

## 1. İqtisadi mexanizmin mahiyyəti və funksiyaları

Mexanizm dedikdə, iqtisadi təfəkkürdə, müəyyən fəaliyyət növünün hər hansı bir qaydasını müəyyənləşdirən sistem və quruluş nəzərdə tutulur. Təsərrüfat mexa-nizmi proseslərin məcmusu, idarəetmənin təşkilati quruluşu, forma və metodlarını, habelə iqtisadi qanunlar və təkrar istehsal proseslərinin normal fəaliyyətinin təmin edilməsinə şərait yaradan hüquqi normaları özündə ifadə edir.

Təsərrüfat mexanizmini formalaşdıran mühüm quruluş əlamətlərinə aşağıda-kıları daxil etmək olar: *ictimai istehsalın təşkili formaları (əmək bölgüsü, istehsalın*

*ixtisaslaşması, onun yerləşdirilməsi və s.).* Onların vasitəsilə cəmiyyətin məhsuldar qüvvələrinin inkişafına bilavasitə təsir göstərilir və nəticədə bu məhsuldar qüvvə-lərdən səmərəli istifadə olunma səviyyəsi yüksəldilir; *təsərrüfatçılıq əlaqələrinin forması.* Bu zaman iqtisadiyyatda mübadilə münasibətləri baş verir, o cümlədən, istehsalın dövriyyə vasitələrinin mübadiləsi mümkün olur, maliyyə-kredit münasi-bətləri və s. proseslər baş verir; *planlaşdırma və idarəetmə forma və metodları.* Bu halda iqtisadi, hüquqi, sosial, psixoloji və s. münasibətlərin səmərəliliyi təmin edil-miş olur; *iqtisadi vasitə və stimulların (*hərəkətəgətirici səbəb, şirnikdirici, həvəs və maraq oyadıcı amillərin) *məcmusu.* Bu halda istehsala və təsərrüfat fəaliyyəti gös-tərən subyektlərə bilavasitə təsir göstərilir, onların vasitəsilə təsərrüfat fəaliyyətin-də uyğunlaşdırma və stimullaşdırma tədbirləri həyata keçirilmiş olur (2, 22).

İqtisadi mexanizm həm də iqtisadi qanunların həyata keçirilmə üsulu hesab edilir. Onu formalaşdıran elementlərə daxil edilir: müəyyən təşkilati-iqtisadi mexa-nizmə uyğun gələn dövlət siyasəti, maliyyələşdirmə, investisiya, kreditləşdirmə, maliyyə və material vəsaitlərinin ehtiyatlarının yaradılması, sığorta və təkrar sığor-ta, dəymiş ziyanın bərpa edilməsi, iqtisadi stimullaşdırma, iqtisadi məsuliyyət və digər çoxlu iqtisadi münasibətlərin səmərəliliyi.

Göstərilən yanaşmalara uyğun olaraq, kooperasiya sisteminin iqtisadi mexa-nizmi 1-ci sxemdə uyğun təklif və iddia edilir. Sxemdən göründüyü kimi, istehsal və istehlak koopperativlərinin iqtisadi mexanizmi çox mürəkkəb bir quruluşa ma-likdir. Onun tərkib elementlərinin hər birinin normal fəaliyyəti əsas şərdir. İstəni-lən hər bir elementindəki nasazlıq onun bütün hissələrinin normal fəaliyyətinə təsir göstərir və səmərəli nəticələrin alınması mümkün olmur.

## 2. İqtisadi mexanizmin qiymətləndirilmə xüsusiyyətləri

Tədqiqat nəticəsində məlum olmuşdur ki, ölkənin kənd təsərrüfatı və ona xid-mət göstərən fəaliyyət sahələri, eləcə də emal sahələri üzrə iqtisadi-statistik qiy-mətləndirmələr qənaətbəxş sayılmır. Belə bir vəziyyətdə kooperasiya sisteminin fəaliyyətinin səmərəliliyini müəyyənləşdirmək və iqtisadi qiymətləndirmələrin aparılması mümkün olmur. Göstərilən problemi aradan qaldırmaq məqsədilə yeni qiymətləndirmə metodologiyası təklif edilmişdir. Onun mahiyyəti qısaca olaraq belə xarakterizə edilir:

- kənd təsərrüfatı məhsullarının, emal sahələrinin məhsullarının, habelə müx-təlif xarakterli xidmətlərin kəmiyyətinin uçotunun dəqiq aparılması (əsas və əlavə məhsul növləri üzrə);
- hər bir əsas və əlavə məhsul növləri, xidmətlər üzrə istehsalçı (satış) qiymət-lərinin orta illik həddinin öyrənilməsinə diqqət yönəltmək;
- məhsul istehsalı və xidmətlərin göstərilməsi zamanı istifadə edilən xammal və materialların istehlakçı (alış) qiymətlərinə əsasən əsas və əlavə məhsul vahidlərinin birbaşa istehsal xərclərinin hesablanmasını təmin etmək.

Yuxarıda verilmiş statistik məlumatlar əsasında iqtisadi mexanizmin iqtisadi-statistik qiymətləndirilməsi üçün aşağıdakı göstəricilər üzrə statistik məlumatların hesablanması təmin edilsin - hər bir subyekt, rayon, iqtisadi rayon və ölkə üzrə: a) istehsal edilmiş məhsulların və göstərilmiş xidmətlərin dəyəri;


Sxem 1. ASK sahələrinin kooperasiya sisteminin iqtisadi mexanizmi
Hüquqi mexanizm:
1. Nizamnamə;
2. Ümumi iqtisadi qanunlar və məcəllələr;
3. Spesifik (fərdi) qanunvericilik aktları;
4. Kontrakt (müqavilə).
İdarəetmə mexanizmi:
1. Üzvlərinin ümumi yığıncağı;
2. Kooperativin (birliyin, ittifaqın) idarə heyətinin sədri;
3. İdarə heyəti;
4. Müşahidə şurası;
5. Maliyyə-təftiş komissiyası.
Təşkilati mexanizmi:
1. Üzvlərinin statusuna görə:
- fiziki şəxslər;
- hüquqi şəxslər.
2. Üzvlərinin üzvlük formasına görə:
- əsas üzvlər;
- assosiasiya olunmuş (birləşmiş) üzvlər.
3. Üzvlərinin istehsal həcminə görə:
- kiçik;
- orta və
- iri sahibkarlar.
İqtisadi münasibətlər sistemi (fəaliyyət mexanizmi)
İstehsal münasibətləri mexanizmi:
- maddi nemətlər istehsalı;
- xidmətlər göstərilməsi;
- təklif;
- keyfiyyət;
- qiymət;
- dəyər;
- iqtisadi səmərəlilik.
Mübadilə (bazar) münasibətləri mexanizmi:
- pərakəndə satış;
- topdan satış;
- birbaşa satış;
- natural mübadilə;
- təchizat;
- tələbat;
- qiymət;
- keyfiyyət;
- təklifin tələbata uyğunluğu.
İstehlak münasibətləri mexanizmi:
- son istehlak;
- aralıq istehlak;
- keyfiyyət;
- sosial səmərəlilik;
- istehlak dəyəri;
- qiymət stabilliyi.
Qiymət mexanizmi:
- istehsalçı qiymətləri;
- istehlakçı qiymətləri;
- pərakəndə ticarətdə istehlak qiymətləri.
Regional (çoğrafi) fəaliyyət mexanizmi:
1. mikroiqtisadi; 2. mezoiqtisadi; 3. makroiqtisadi;
4. regional; 5. qlobal
Xərclər mexanizmi:
- istehsal (dəyişən, müstəqim) xərcləri;
- idarəetmə (daimi, qeyri-müstəqim) xərcləri;
- tədavül xərcləri;
- vergi ödənişləri;
- sığorta ödənişləri;
- faiz ödənişləri;
- icarə haqqı ödənişləri.
Sığorta mexanizmi: məcburi; könüllü; kooperativ sığorta fondu.
Kredit mexanizmi: uzun müddətli; orta müddətli; qısa müddətli.
Dövlət tənzimləmə mexanizmi: vergi güzəştləri və azadetmələr; məhsullara görə əlavə ödənişlər; xərclərə görə subsidiyalar; sığorta ödənişinə görə yardımlar; birbaşa maliyyə yardımları və s.
Vergi mexanizmi:
- istehsaldan vergilər;
- məhsula görə vergilər.
Dəyərin bölgüsü mexanizmi: istehsal xərcləri; yeni yaradılmış (əlavə) dəyər.
Yeni yaradılmış (əlavə) dəyərin bölgüsü mexanizmi: istehsaldan vergilər (mənfəət vergisi də daxil edilməklə); sığorta ödənişləri; faiz ödənişləri; icarə haqqının ödənişləri; muzdlu işçilərin əmək haqqı; amortizasiya ayırmaları; fondlara ayırmalar; kredit borclarının qaytarılması; üzvlər arasında
İnvestisiya mexanizmi:
- uzun müddətli aktivlərə;
- qısa müddətli aktivlərə;
- intellektual kapitala.
Maliyyə mexanizmi: istehsal və xidmətlərdən xalis mənfəət; amortizasiya ayırmaları; dövlət yardımları; kreditlər; sərvətin icarəsi və satışından əldə edilən pul vəsaiti; üzvlərin əsas və əlavə üzvlük haqları; ictimai və sosial fondlar; səhmlər buraxılışı və qiymətli kağızlardan əldə olunan gəlir; digər yardımlar.

b) müvafiq məh-sul və xidmətlərin istehsal xərclərinin həcmi (dəyəri) müəyyənləşdirilsin; c) yeni yaradılmış (əlavə) dəyərin hesablanması, bölgüsü, yenidən bölgüsü həyata keçi-rilsin və mənfəət düzgün hesablansın. Hal-hazırda ölkədə belə hesablamalar aparıl-mır, baxmayaraq ki, iqtisadiyyatın bütün sahələri, o cümlədən, kənd təsərrüfatı, ASK-nin digər sahələri üçün belə hesablamalar mühüm əhəmiyyət kəsb edir. Avropa ölkələrində ona lazımi əhəmiyyət verilir və müvafiq hesablamalar aparılır. Göstərilən tədbirlər yerinə yetirilməsə kooperasiya sisteminin səmərəli fəaliyyətin-dən danışmağa belə dəyməz.

### 3. Abşeron, Dağlıq Şirvan və Gəncə-Qazax iqtisadi rayonların kənd təsərrüfatının səmərəliliyi və ixtisaslaşma xüsusiyyətlərinin müəyyənləşdirilməsi

Tədqiqat nəticəsində məlum olmuşdur ki, ölkədə 2005-ci ildə keçirilən kənd təsərrüfatı siyahıyaalması zamanı 179 kənd təsərrüfatı istehsal kooperativlərinin möv-cud olduğu bilinsə də, faktiki olaraq, onların təşkilati mexanizmi dünya təcrübəsinə uyğun gələn kooperativlərin formalaşdırma prinsipləri ilə ziddiyyət təşkil edir. Onla-rın təsərrüfat fəaliyyətinin iqtisadi-statistik qiymətləndirilməsinə lazımi diqqət yönəl-dilmir, subyektlərin özlərində uçot-hesabat işlərinin təşkili qeyri-qənaətbəxdir və s. əsaslı problemlər mövcuddur. Digər tərəfdən, ölkənin ASK sahələrindəki mövcud vəziyyətə uyğun olaraq, kənd təsərrüfatı istehsal kooperativləri və onlara xidmət göstərən istehlak kooperativlərinin yaradılması təklifi irəli sürüldüyünə, kütləvi ko-operativləşdirmə, kooperasiya sistemi yaradılmasının məqsədəuyğun olduğunu iddia etdiyimizə görə, onların təsərrüfat (iqtisadi) mexanizminin mövcud kənd təsərrüfatı, emal və xidmət sahələrinin təsərrüfat (iqtisadi) mexanizminə uyğun olacağını nəzərə alaraq, hal-hazırda rəsmi statistikada öyrənilən, yeganə mənbə sayılan, natamam və keyfiyyətsiz statistik məlumatlar əsasında, yuxarıda verilmiş metodikaya uyğun iqtisadi-statistik qiymətləndirmə aparmaq, onun əsasında tədqiq olunan regionların xüsusiyyətlərini üzə çıxarmaq məqsədəuyğun hesab edilmişdir.

Beləliklə, yuxarıdakı cədvəlin məlumatlarından göründüyü kimi, Abşeron iq-tisadi rayonunun təsərrüfatları südçülük (43,4%-lə), ətçilik (25,2%) və yumurta (24,9%) istehsalı üzrə ixtisaslaşmışlar. Dağlıq Şirvan iqtisadi rayonun ixtisaslaşma sahələrinə daxil edilir: südçülük (41,3%), buğda istehsalı (25,5%), ət istehsalı (11,9%). Gəncə-Qazax iqtisadi rayonunun ixtisaslaşmasını səciyyələndirə bilər: südçülük (27,5%), kartofçuluq (20,8%), ət istehsalı (14,5%), tərəvəz istehsalı (11,6%), yumurta istehsalı (6,0%) və buğda istehsalı (5,4%). Belə yanaşma inziba-ti rayonlar, habelə iqtisadi subyektlər üzrə ixtisaslaşmanı daha dəqiq müəyyənləş-dirməyə şərait yaradır.

Birinci və ikinci cədvəllərin məlumatlarının hesablanma metodologiyası qısa-ca belə səciyyələndirilir: birinci cədvəldə istehsal edilmiş məhsulların ümumi həc-mi, ikinci cədvəldə isə müvafiq əkin sahələrinin orta məhsuldarlıq göstəricilərini müvafiq məhsulların satış qiymətlərinə vuraraq dəyər göstəriciləri hesablanmışdır; müvafiq məhsulların həcmini (kəmiyyətini) maya dəyərinə vurmaqla, onların isteh-sal xərcləri hesablanmışdır; üçüncü mərhələdə birinci hesablamaların nəticələri-dən (dəyərdən) ikinci hesablamaların nəticəslərini (istehsal xərclərini) çıxmaq yolu ilə yeni yaradılmış (əlavə) dəyər hesablanmışdır; göstərilən hesablamaları apardıq-dan sonra, 1-ci cədvələ uyğun

hesablanmış yeni yaradılan (əlavə) dəyərin nisbi göstəricilərini hesablayaraq, hər bir məhsulun ümumi məhsulun tərkibində tutduğu xüsusi çəki müəyyənləşdirilmişdir;

*Cədvəl 1.*

Regionlarda istehsal olunmuş kənd təsərrüfatı məhsullarının
yeni yaradılmış (əlavə) dəyərin sahəvi tərkibi, 2014-cü ilin məlumatları, %

| | Bakı şəhəri | Abşeron | Dağlıq Şirvan | Gəncə-Qazax | Azərbaycan |
|---|---|---|---|---|---|
| Dənli və dənli paxlalılar | 0 | 0,4 | **35,5** | **8,7** | 14,1 |
| buğda | 0 | 0,1 | 25,5 | 5,4 | 9,0 |
| arpa | 0 | 0,3 | 9,4 | 2,0 | 3,9 |
| qarğıdalı | 0 | 0,0 | 0,2 | 1,3 | 1,1 |
| sair dənlilər | 0 | 0,0 | 0,0 | 0,01 | 0,03 |
| dənli paxlalıların cəmi | 0 | 0,0 | 0,4 | 0,0 | 0,1 |
| Pambıq | 0 | 0 | 0 | 0,1 | 0,3 |
| Şəkər çuğunduru | 0 | 0 | 0,1 | 0,1 | 0,2 |
| Tütün | 0 | 0 | 0 | 0 | 0,1 |
| Kartof | 0,1 | 0,1 | 2,1 | **20,8** | 6,6 |
| Tərəvəz (bütün növlər üzrə) | **11,0** | **3,7** | 0,9 | **11,6** | 10,6 |
| Bostan məhsulları | 0,4 | 0,6 | 0,2 | 0,7 | 1,7 |
| Əkinçilik üzrə cəmi | 11,4 | 4,9 | 38,8 | 41,9 | 33,7 |
| Meyvəçilik cəmi | 33,4 | 0,8 | 4,4 | 9,0 | 14,6 |
| meyvə və giləmeyvə | **22,4** | 0,7 | **2,9** | 6,0 | 13,1 |
| üzüm | **11,0** | 0,2 | 1,6 | 3,0 | 1,5 |
| çay yarpağı | 0 | 0 | 0 | 0 | 0,01 |
| Bitkiçilik məhsulları üzrə cəmi | 44,9 | 5,7 | 43,2 | 50,9 | 48,3 |
| Heyvandarlıq məhsulları cəmi | 55,1 | 94,3 | 56,8 | 49,1 | 51,7 |
| ət istehsalı | **37,2** | **25,2** | **11,9** | **14,5** | 18,2 |
| süd istehsalı | **13,6** | **43,4** | **41,3** | **27,5** | 27,8 |
| yun | 0,4 | 0,8 | 1,2 | 1,2 | 0,8 |
| yumurta | 3,9 | **24,9** | **2,4** | 6,0 | 4,9 |
| Kənd təsərrüfatı cəmi | 100 | 100 | 100 | 100 | 100 |

Mənbə: Dövlət Statistika Komitəsinin bülletenləri, 2014-cü ilin yekunlarına dair və tədqiqatçının hesablaması

ikinci cədvəldə isə hər bir əkin sahəsi üzrə bir hektardan əldə edilən yeni yaradılan (əlavə) dəyərin istehsal xərclərinə nisbətini hesablamaq yolu ilə səmərəlilik səviyyəsi müəyyənləşdirilmişdir. Əslində isə dəyə-rin hesablanması üçün istehsalçı qiymətlərindən, istehsal xərclərini hesablamaq üçün isə istehlakçı qiymətlərinə əsasən hesablanan istehsal xərclərindən istifadə edilməlidir, belə hesablama faktiki vəziyyəti daha dəqiq xarakterizə edir. Ona görə də təklif edilən metodologiyanın əhəmiyyətini mövcud olan statistik məlumatlar əsasında, eksperiment formada göstərməyi məqsədəuyğun saymışıq və qiymətlərin düzgün hesablanması yollarını göstərməyi də əhəmiyyətli hesab etmişik.

Təklif edilən metodologiyaya uyğun aparılan hesablama və təhlil işləri vasitə-silə istənilən mərhələdə (iqtisadi subyekt, inzibati və iqtisadi rayonlar, ölkə üzrə) səmərəlilik səviyyəsini qiymətləndirmək mümkündür. Məsələn, əkin sahələrinin səmərəliliyi 2-ci cədvəldən görünür.

*Cədvəl 2.*

Regionlarda əkin sahələrinə və kənd təsərrüfatına yararlı sahələrə görə yeni yaradılmış (əlavə) dəyəri və səmərəlilik səviyyəsi, 2014-cü ilin məlumatları üzrə

| | Abşeron | Dağlıq Şirvan | Gəncə-Qazax | Azərbaycan |
|---|---|---|---|---|
| Bir hektar buğda əkini sahəsindən əldə edilən əlavə dəyər, manat | 92 | 251 | 166 | 123 |
| Buğda əkilən sahələrin iqtisadi səmərəliliyi, % | 142 | 218 | 132 | 132 |
| Bir hektar arpa əkini sahəsindən əldə edilən əlavə dəyər, manat | 78 | 193 | 150 | 107 |
| Arpa əkilən sahələrin iqtisadi səmərəliliyi, % | 142 | 134 | 132 | 132 |
| Bir hektar qarğıdalı əkini sahəsindən əldə edilən əlavə dəyər, manat | 170 | 153 | 314 | 285 |
| Qarğıdalı əkilən sahələrin iqtisadi səmərəliliyi,% | 142 | 218 | 132 | 132 |
| Bir hektar şəkər çuğunduru əkini sahəsindən əldə edilən əlavə dəyər, manat | 0 | 283 | 576 | 560 |
| Şəkər çuğunduru əkilən sahələrin iqtisadi səmərəliliyi, % | 0 | 145 | 160 | 154 |
| Bir hektar kartof əkini sahəsindən əldə edilən əlavə dəyər, manat | 1218 | 1147 | 1555 | 2323 |
| Kartof əkilən sahələrin iqtisadi səmərəliliyi, % | 164 | 173 | 134 | 174 |
| Bir hektar tərəvəz əkini sahəsindən əldə edilən əlavə dəyər, manat | 1142 | 353 | 2123 | 1957 |
| Tərəvəz əkilən sahələrin iqtisadi səmərəliliyi, % | 200 | 124 | 225 | 215 |
| Bir hektar bostan məhsulları əkini sahəsindən əldə edilən əlavə dəyər, manat | 1621 | 208 | 1865 | 862 |
| Bostan məhsulları əkilən sahələrin iqtisadi səmərəliliyi, % | 250 | 147 | 225 | 168 |
| Bir hektar meyvə sahəsindən əldə edilən əlavə dəyər, manat | 112 | 690 | 807 | 2002 |
| Meyvə sahələrin iqtisadi səmərəliliyi, % | 220 | 195 | 143 | 271 |
| Bir hektar üzüm əkini sahəsindən əldə edilən əlavə dəyər, manat | 218 | 624 | 2273 | 1032 |
| Üzüm əkilən sahələrin iqtisadi səmərəliliyi, % | 355 | 148 | 180 | 156 |
| Bir hektar kənd təsərrüfatına yararlı sahəyə düşən əlavə dəyər, manat: | | | | |
| süd istehsalı üzrə | 82 | 121 | 107 | 117 |
| ət istehsalı üzrə | 47 | 35 | 57 | 77 |
| yumurta istehsalı üzrə | 47 | 7 | 24 | 21 |
| yun istehsalı üzrə | 1,4 | 3,5 | 4,7 | 3,2 |

Mənbə: Dövlət Statistika Komitəsinin bülletenləri, 2014-cü ilin yekunlarına dair və tədqiqatçının hesablaması

Verilmiş məlumatlardan göründüyü kimi, hər hektar buğda əkinlərindən Dağlıq Şirvan torpaqlarında daha çox gəlir əldə edilir. Gəncə-Qazax iqtisadi rayonlarında isə buğda əkini sahələri, ölkə üzrə orta səviyyə ilə müqayisədə üstün gəlirli sahə hesab edilir. Abşeron iqtisadi rayonunun torpaqları üçün ən gəlirli əkinçilik sahələri bostan bitkiləri, kartof, tərəvəz və üzümçülüklə məşğulluq hesab edilir. Dağlıq Şirvanın kənd təsərrüfatına yararlı sahələrinin gəlirlilik səviyyəsinin yüksək həddi kartof, meyvə və

üzüm əkinləri üçün xarakterik sayılır. Gəncə-Qazax iqtisadi rayonun təsərrüfatları üçün daha çox gəlirli sahələrə daxil edilir: üzümçü-lük, tərəvəzçilik, bostan bitkiləri əkini, kartofçuluq, meyvəçilik və s.

Təhlil əsasında demək mümkün olur ki, ayrı-ayrı iqtisadi rayonun inzibati ra-yonlarında bu və ya digər əkinçilik və meyvəçilik sahələrinin səmərəlilik göstəri-ciləri müvafiq regionların orta səviyyəsindən xeyli kənarlaşır. Belə bir vəziyyət də ixtisaslaşma məsələsinə bilavasitə öz təsirini göstərir. Odur ki, ətraflı öyrənilməsi və nəzərə alınması çox mühüm əhəmiyyət kəsb edir.

Tədqiqat nəticəsində məlum olmuşdur ki, ayrı-ayrı iqtisadi rayonlarda fəaliy-yət göstərən emal sahələri barədə dəqiq məlumatların: istehsal gücləri, onların xammala tələbatı, xammal mənbələri və s. olmaması kənd təsərrüfatı ilə emal sahə-lərinin qarşılıqlı əlaqələrini müəyyənləşdirmək, emal sahələrinin genişləndirilməsi barədə təkliflər vermək mümkün olmur. Habelə regionların pərakəndə ticarətində satılan məhsulların yerli istehsal və kənardan (o cümlədən, idxaldan) gətirilən hissəsini müəyyən etmək problem olaraq qalır. Tədqiqat nəticəsində məlum olmuşdur ki, iqtisadi subyektlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının xeyli hissəsini özlərinin daxili tələbatının ödənilməsinə sərf edir, çox hissəsini istehlak bazarında satırlar və əlverişli ticarət münasibətlərinin mövcud olmamasına görə xeyli kənd təsərrüfatı məhsulları zay və tullantıya çevrilir. Məsələn, istehsal edilmiş məhsulların istehsal xərclərinin cəmində saxlanma zamanı xarab olan məhsulları xüsusi çəkisi: Abşeronda - arpa üzrə 1,1%, meyvə - 0,8%, üzüm - 1,7%; Dağlıq Şirvanda - buğda 0,5%, arpa 1,8%, kartof 2,5%, tərəvəz 2,4%, meyvə 0,9%, üzüm 1,3%; Gəncə-Qazaxda - buğda 0,2%, arpa 0,1%, kartof 1,8%, tərəvəz 0,5%, meyvə 0,6%, üzüm 0,3% xüsusi çəkiyə malik olur.

Tədqiqat nəticəsində məlum olmuşdur ki, hər üç iqtisadi rayonda fəaliyyət göstərən kənd təsərrüfatı istehsalçıları məhsullarını əsasən bazar və ticarət şəbəkə-lərində özləri satırlar. Ayrı-ayrı məhsullar üzrə bu qaydada satılan məhsulların xüsusi çəkisi Abşeronda 50-100%, Dağlıq Şirvanda 28-100%, Gəncə-Qazaxda 31-100% təşkil edir. Bu regionların kənd təsərrüfatı istehsalçıları zəruri istehsal vasitə-lərini (xammal-materialları) da əsasən özləri pərakəndə ticarət şəbəkələrindən alırlar. Ayrı-ayrı xammal və materialların bu üsulla alınmasının xüsusi çəkisi: Ab-şeronda - 62-100%, Dağlıq Şirvanda – 42-100%, Gəncə-Qazaxda isə 72-100%-lə xarakterizə edilir. Göstərilən faktlar deməyə əsas verir ki, kənd təsərrüfatı istehsalçıları kortəbii bazar münasibətləri həyata keçirirlər, məhsullarını vaxtında sata bilmirlər, xammal-materialların alınmasında çətinliklərlə üzləşirlər, bu problemlərin həllinə xeyli vaxt sərf edirlər, bütün bunların nəticəsidir ki, məhsul-darlığın artırılması mümkün olmur və əsas istehsal fondlarından səmərəli istifadə edə bilmirlər, maliyyə imkanları tükənir və s. hallar yaranır.

Göstərilən məsələlərin məqsədəuyğun həlli üçün kooperasiya sistemini: kənd təsərrüfatı istehsal kooperativləri; ASK sahələri üzrə istehlak kooperativləri; regional (rayon) kooperativlər birliyi; ixtisaslaşdırılmış mərkəzi kooperativlər itti-faqlarını yaratmaq əlverişli hesab edilir. Onların funksiya və vəzifələrini aşağıdakı kimi müəyyənləşdirmək (əməyin bölgüsü, ixtisaslaşdırılması) səmərəlilik vasitəsi sayılır:

- istehsal kooperativləri kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olurlar;
- ASK istehlak kooperativləri kənd təsərrüfatı məhsullarının istehsalçılarına xid-mətlər göstərirlər: kənd təsərrüfatı məhsullarının tədarükü, satışı, emalı, saxlan-ması, daşınması, xammal və materiallarla təchiz etmək, müxtəlif cür digər xid-mətlərin göstərilməsi;
- regional (rayon) kooperativlər birliyi müvafiq regionun istehlak bazarının (əha-linin, istehsal sahələrinin, emal müəssisələrin) tələbatını öyrənir, yerli təklifin sə-viyyəsini müəyyənləşdirir, tələbatın çatışmayan hissəsinin kənardan və ya xarici ölkələrdən gətirilməsi, yerli istehsalın izafi (artıq) hissəsinin digər regionlara və xarici ölkələrə satılmasının təşkili, xarici əlaqələr üzrə münasibətlərinin səmərə-liliyinə cavabdehlik daşıyır;
- ixtisaslaşdırılmış mərkəzi kooperativlər iqttifaqları müvafiq sahənin təşkili və inkişaf etdirilməsi, xarici iqtisadi əlaqələrin mütəşəkkilliyini təmin etmək, elmi-texniki tərəqqinin nailiyyətlərini tətbiq etmək və s. xidmətləri göstərirlər.

## 4. Kooperasiya sisteminin iqtisadi mexanizminin təkmilləşdirilməsi yolları

Kooperasiya sistemi və onun hər bir subyektinin məqsədəuyğun və səmərəli fəaliyyəti üçün 1-ci sxemdə verilmiş iqtisadi mexanizmin hər bir rıçaqı (elementi) normal fəaliyyət göstərməlidir. Müəyyən nəzəriyyələr və nizam-intizama əsaslan-malı, vaxtaşırı təkmilləşdirilməli və işlək vəziyyətdə olmalıdır. Əks halda səmərəli fəaliyyətin təşkili mümkün olmur, kortəbiilik hökm sürür və s. arzuolunmaz hallar yaranır. Necə ki, hal-hazırda ölkənin kənd təsərrüfatında müşahidə edilir.

Azərbaycanda aqrar sənaye kompleksi sahələri üzrə kooperasiya sisteminin iqtisadi mexanizmini hərəkətə gətirmək üçün, ilk növbə, ölkənin iqtisadi və aqrar siyasətində kooperativləşdirməyə lazımı diqqət yönəltmək, layiqli yer vermək və ön plana çəkmək məqsədəuyğun sayılır. Kooperativlərin yaradılmasına başlamağı və həyata keçirməyin vacibliyi nəzərə alınmalı, bu tədbirin həyata keçirilməsi ümumxalq vəzifəsi elan edilməlidir. Xüsusi əhəmiyyət verilməlidir. Bunda da maraqlı tərəf kimi dövlət çıxış etməli, təşəbbüskarlıq göstərməli və rəhbərliyi ələ almalıdır.

Tədqiqat nəticəsində iqtisadi mexanizmin mühüm əhəmiyyətli, bəzi element-lərinin təkmilləşdirilməsi yolları müəyyənləşdirilmişdir:

1. Hüquqi mexanizmin təkmilləşdirilməsi yolları. Kənd təsərrüfatı və ticarət haqqında qanunların, habelə kənd təsərrüfatı istehsal kooperativləri, aqrar-sənaye kompleksi sahələrində istehlak kooperativləri barədə, aqrar-sənaye kompleksi sa-hələrində uçot və hesabat işlərinin təşkilinə dair spesifik qanunların qəbul edilməsi tələb olunur; Əmək Məcəlləsi, Mülki Məsəllə, Vergi Məcəlləsi, Gömrük Məsəllə-sində təkmilləşdirmə işlərinin aparılması labüddür. Hüquqi mexanizmin təkmilləş-dirilməsinin əsas məsələlərindən biri kooperasiya sistemində kontrak (müqavilə) metodu üzrə münasibətlərin təşkili və tənzimlənməsi ilə səciyyələndirilir və vacib sayılır.

2. Mübadilə (bazar) münasibətləri mexanizminin təkmilləşdirilməsinin əsas istiqamətlərinə daxil edilir: tədarük və satış bazalarının yaradılması, onların əsasında topdansatış ticarəti, pərakəndə kooperativ ticarəti, istehsal və xidmət subyektlərinin

təchizat qurumları, anbar, nəqliyyat-daşıma xidmətlərin təşkili, sair xidmət sahələrinin fəaliyyətinin stimullaşdırılması və gücləndirilməsi.

3. Dövlət özünün tənzimləmə funksiyalarını kooperasiya sistemi vasitəsilə səmərəli yerinə yetirə bilər. Ayrılmış vəsaitdən səmərəli istifadə olunmasında kooperativlər məsuliyyət daşıyar, güzəşt və yardımların dəqiq həcmi müəyyənləşdirilər, onlardan təyinatı üzrə istifadə edilməsində maraqlı tərəf kimi çıxış edər, məhsul istehsalı və xidmətlər göstərilməsinin məqsədyönlü inkişafına nail olunar. Dövlət özünün tənzimləmə funksiyasını kooperasiya sistemi vasitəsilə həyata keçirilməsini əhəmiyyətli hesab etdiyi halda, xüsusi dövlət proqramları vasitəsilə: kənd təsərrüfatına yararlı torpaq sahələrinin yaxşılaşdırılması və məhsuldarlı-ğının bərpası; kənd təsərrüfatı istehsalçılarının daşınmaz əmlakının siyahıya alınması və qiymətləndirilməsi; təsərrüfatlardaxili irriqasiya və meliorasiya kanallarının bərpası, təmiri və istismarını yaxşılaşdırmaq; kənd yollarının təmiri və istismarı; kiçik və orta emal müəssisələrinin yaradılması; kənd yerlərində kooperativ ticarətin təşkili; infrastruktur (xidmət) sahələrinin yaradılması; kənd təsərrüfatı texnikası, xammal və materiallar ilə təchizat sisteminin yaradılması (topdansatış ticarət vasitəsilə); kənd təsərrüfatı məhsullarının tədarük sisteminin yaradılması; keyfiyyətli toxum təminatı laboratoriyalarının yaradılması; heyvandarlıq üzrə həkim və zoobaytar xidmət sahəsinin yaradılması; ASK sahələri üzrə kooperasiya sisteminin peşə təhsili sisteminin qurulması və s. proqramlar həyata keçirmək vasitəsilə dövlət kooperasiya sisteminin işlək iqtisadi mexanizmini hərəkətə gətirə bilər, ilkin mərhələdə. Sonrakı dövrlərdə isə vergi ödənişini nizama salmaq, dövlət yardımlarının azaldılması və aradan qaldırılması, kənddə sosial məsələlərin həlinə çəkilən xərcləri azaltmaq hesabına kooperativlər sistemi dövlətin xərclərini qaytara və ən etibarlı sahibkarlıq fəaliyyəti sahələrinin yaradılmasına nail oluna bilər, dövlət büdcəsinin gəlirlərinin formalaşdırılmasında birinci yeri tutar.

4. Qiymət mexanizminin təkmilləşdirilməsi istiqaməti istehsalçı (satış) və istehlakçı (alış) qiymətlərinin nəzəri əsaslarını hazırlamaq, təcrübədə tətbiq etmək və orta illik qiymətlərin statistik həddini müəyyənləşdirmək, qiymətləri ƏDV və aksiz vergisinin inhisarçılığından azad etmək ilə səciyyələndirilir.

5. Xərclər mexanizminin təkmilləşdirilməsinə ölkədə mahiyyətini heç kim və hətta maliyyə nazirliyi tərəfindən izah edilə bilməyən və SSRİ dövründən miras qalan maya dəyəri konsepsiyasından imtina etmək, əvəzində istehsal xərcləri, tədavül xərcləri və ümumi idarəetmə xərcləri nəzəriyyələrini hazırlamaq, onların hər birinin xərc maddələrini dəqiq müəyyənləşdirmək və s. daxil edilir.

6. Vergi mexanizminin təkmilləşdirilməsi yolları tətbiq edilən vergiləri iki qrupa: istehsal və məhsula görə vergilərə bölmək, məhsula görə vergilərə ƏDV və aksiz vergisini daxil etmək, məhsula görə vergilərin tətbiqini və uçotunu Avropa ölkələrinin təcrübəsinə uyğunlaşdırmaq, istehsal sahələrində onun “0” variantı üzrə tətbiq etmək nəticəsində ASK sahələrində onların xərcləri süni şişirtmə hallarını aradan qaldırmaq və məhsula görə vergilərin əhalinin gəlirləri hesabına pərakəndə ticarət vasitəsilə toplanmasına nail olmaq və s. ibarətdir.

7. ASK sahələrinin (gələcək kooperasiya sisteminin) iqtisadi mexanizminin səmərəli fəaliyyətini təmin etmək məqsədilə ümumi iqtisadi nəzəriyyə, ASK sahə-lərin iqtisadi nəzəriyyələrini təkmilləşdirmək, o cümlədən, "Kənd təsərrüfatı iqtisa-diyyatı", "Kənd təsərrüfatında qiymətlər", "Kənd təsərrüfatında bazar münasi-bətləri"nin nəzəri əsaslarını müasir tələblərə uyğun işləyib hazırlamaq, gənc nəslin təlimləndirilməsini, iqtisadi subyektlərin mütəxəssislərinin iqtisadi biliklərinin təkmilləşdirilməsini bu yeni tələblərə uyğun həyata keçirmək, müvafiq fəaliyyət sahələrinin nəticələrinin iqtisadi-statistik qiymətləndirilməsini təmin etmək mühün əhəmiyyətli vəzifələrə daxil edilir.

8. Kooperasiya sistemində uçot və hesabatın müasir tələblərə uyğunluğunu təmin etmək məqsədilə hər mərhələdə xüsusi uçot və hesabat qurumunun yaradılması, onların funksiya və vəzifələrinin müəyyən edilməsi, nəzəri-metodoloji vasitələrlə təchiz etmək, respublika səviyyəsində Kooperasiya sistemində uçot və hesabatın təşkili assosiasiyası (ittifaqı) yaratmaq problemin həlli yolları sayılır.

Göstərilən problemlərin həlli yolları 2015-ci ilin tədqiqat işinin yekunlarına dair hesabatında geniş əsaslandırılmış və müəyyən təkliflər irəli sürülmüşdür (2, 135-187).

**5. Kooperasiya sistemində mənfəətin hesablanma metodologiyası barədə**

Kooperasiya sisteminin məqsədi mövcud ehtiyatlardan: torpaq, əmək və kapi-taldan səmərəli istifadə etmək, məhsuldarlığı yüksəltmək, istehlak bazarının tələba-tını ucuz və keyfiyyətli məhsul və xidmətlərlə təmin etməkdən ibarətdir. Kənd təsərrüfatı istehsal kooperativləri özlərinin imkanı və istehlak kooperativlərinin məqsədyönlü, səmərəli xidmətləri hesabına qarşısına qoyulan vəzifələri yerinə yetirə bilirlər. ASK sahələri üzrə istehlak kooperativlərinin fəaliyyətinin səmərəli-liyi kənd təsərrüfatı məhsullarının istehsalçılarına iqtisadi prinsip və metodlar üzrə peşəkar xidmətlər göstəririlməsi ilə səciyyələndirilir. Onların hər ikisinin fəaliy-yətinin səmərəliliyi regionlararası və beynəlxalq əlaqələrin səmərəli təşkilində re-gional (rayon) kooperativlər birlikləri və ixtisaslaşmış mərkəzi kooperativlər itti-faqlarının xidmətlərinin təşkili və həyata keçirilməsi ilə bilavasitə əlaqəli olur.

Kooperativlər sisteminin hər birinin fəaliyyətinin son nəticələrini isə bir əsas göstərici vasitəsilə xarakterizə etmək olur: mənfəətin həcmi. Odur ki, kooperasiya sistemi üzrə gəlirin, mənfəətin, yardımların, mövcud pul ehtiyatlarının qəqiq hesablanması tələb olunur. Bu da kiçik və orta sahibkarlıq təbəqəsində problemə çevrilir. Bu problemi aradan qaldırmaq üçün tədqiqat nəticəsində metodologiya müəyyənləşdirilmiş, sınaqdan keçirilmiş və onun nümunəvi sxemi verilmişdir. İstehsal kooperativləri üzrə bu sxem aşağıdakı kimi xarakterizə edilir.

ASK sahələri üzrə istehlak kooperativi, regional (rayon) kooperativlər birliyi və ixtisaslaşdırılmış mərkəzi kooperativlər ittifaqlarının iqtisadi mexanizmi də təx-minən belə səciyyələndirilir. Fərq yalnız "A" bloku üzrə aparılan hesablamalarda müşahidə edilir. Emal sahələrinin, müxtəlif xidmət sahələrinin məhsul və xidmət-lərinin dəyəri, aralıq istehlak xərcləri və yeni yaradılmış (əlavə) dəyəyin hesab-lanması tələb olunur.

*Sxem 2.*

İstehsal kooperativinin iqtisadi mexanizminin (dəyərlər zəncirinin) nümunəvi səciyyəsi

| | Müəyyən dövr ərzində yaradılan dəyər, D | Müəyyən dövr ərzində istehsal edilən məhsulların istehsal xərcləri (maddiləşmiş əməyin dəyəri, dəyişən xərclər), Ax | Müəyyən dövr ərzində yeni yaradılan (əlavə) dəyər (canlı əməyin dəyəri), Y(ə)d = D - Ax |
|---|---|---|---|
| 1. Bitkiçilik məhsulları istehsalı (yem bitkiləri daxil edilmədən) | | | |
| 2. Yem bitkiləri istehsalı | | | |
| 3. Heyvandarlıq məhsulları istehsalı | | | |
| 4. Kənd təsərrüfatında xidmətlər | | | |
| A. Kənd təsərrüfatı üzrə məhsul istehsalı və xidmətlərin cəmi | | | |
| B. Kənd təsərrüfatı sahələrində bitməmiş istehsalın qalığı (saldosu), -, + | | | |
| C. Kənd təsərrüfatı məhsullarının istehsalına görə dövlət və sair yardımlar, sığorta orqanlarından alınan yardımlar da daxil edilməklə | | | |
| Ç. Cərimə və sanksiyalardan əldə edilən mədaxil (gəlir) | | | |
| Q. Kooperativ üzrə istehsal və xidmətlərdən əldə edilən gəlir (A+B+C+Ç) | | | |
| D. Ümumi (daimi, sabit) xərclərin ödənilməsi (D1+D2+D3+D4+D5+D6) | | | |
| D1. Vergi öhdəliklərinin yerinə yetirilməsi (istehsala və idxala vergilərinin ödənilməsi), mənfəət vergisindən başqa | | | |
| D2. Sığorta öhdəliklərinin yerinə yetirilməsi | | | |
| D3. Cərimə və sanksiyaların ödənilməsi | | | |
| D4. Muzdlu işçilərin əmək haqqının ödənilməsi | | | |
| D5. Kooperasiya üzvləri və muzdlu işçilərinin sosial sığortaya ayırmaları | | | |
| D6. İcarə haqqının ödənilməsi, -, + | | | |
| E. Kooperativin ümumi mənfəəti (Q-D), mənfəət vergisinin hesablanması üçün əsas sayılır | | | |
| Ə. Mənfəətin ilkin bölgüsü (Ə1+Ə2+Ə3+Ə4+Ə5+Ə6) | | | |
| Ə1. Mənfəət vergisinin ödənilməsi | | | |
| Ə2. Amortizasiya ayırmaları | | | |
| Ə3. Kredit və ssuda faizlərinin ödənişi | | | |
| Ə4. Kooperativin fondlarına: iqtisadi və sosial fondlarına ayırmalar | | | |
| Ə5. Üzvlük haqqının ödənilməsi (regional və ittifaq kooperativ birliklərinə) | | | |
| Ə6. Kredit və ssudaların qaytarılması | | | |
| G. Xalis, sərəncamda qalan, üzvlər arasında bölüşdürülən mənfəət = E-Ə | | | |

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Aqrar sahədə kooperasiya və inteqrasiya münasibətlərinin inkişafı şöbəsinin 2012-2014-cü illərdə “Kənd təsərrüfatının rəqabət qabiliyyətinin təmin edilməsində kooperasiya münasibətlərinin rolunun artırılması” mövzusu üzrə aparılmış tədqiqatın hesabatı;
2. Aqrar sahədə kooperasiya və inteqrasiya münasibətlərinin inkişafı şöbəsinin 2015-ci ildə “Abşeron, Dağliq Şirvan və Gəncə-Qazax iqtisadi rayonlar üzrə kənd təsərrüfati kooperativlərinin formalaşdirilmasının iqtisadi mexanizminin təkmilləşdirməsi yollari” mövzusunda aparılmış tədqiqata dair hesabat.

**Пути формирования и совершенствования экономического механизма в системе кооперации**

Зейналлы Алиса Таваккуль оглы

**Резюме**

Практика экономико-статистической оценки результатов деятельности отраслей экономики в целом, в том числе отраслей агропромышленного комплекса страны несовершенно. Наличие определенных недостатков по изучению натурального объема производства продукции и услуг, уровня цены производителей и потребительских цен не позволяет подсчета общей стоимости производства, стоимости производственных затрат и добавленной стоимости. Также распределение добавленной стоимости, расчет таких экономических показателей как доход, прибыль и др., изучение уровня специализации, показателей экономической эффективности субъектов и отраслей экономики становится невозможным. Статья посвящена формированию методологии экономико-статистической оценки результатов деятельности отраслей экономики и его совершенствования в соответствии с требованием методологии СНС 2008 года.

**Ключевые слова**: экономический механизм, механизм производственных отношений, механизм обменных (торговых) отношений, механизм потребительских отношений, механизм цен, механизм затрат, финансово-кредитный механизм, налоговый механизм, экономический механизм производственных кооперативов.

**Ways of formation and perfection the economic mechanism in cooperation system**

Zeynalli Alisa Tavakkul

**Summary**

Practice of an economic-statistical estimation of results of activity of branches of economy as a whole, including branches of agriculture of the country is not perfect. Presence of certain lacks in studying of natural volume of output of products and services, level of the price of manufacturers and consumer prices do not allow to calculate the total cost of manufacture, cost of industrial expenses and the value added cost. Also, distribution of the value added cost, calculation of such economic indicators as incomes, profits, etc., studying of level of specialization, indicators economic efficiency of subjects and economy branches becomes impossible. Article is devoted to formation of methodology of an economic-statistical estimation of results of activity of branches of economy and its perfection according to requirements of methodology SNA of 2008.

Keywords: economic mechanism, mechanism of production relations, mechanism of exchange (trading) relations, mechanism of consumer relations, mechanism of the prices, expense mechanism, financial-credit mechanism, the tax mechanism, economic mechanism of production of co-operatives.